| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **30.05.2017** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **1436** |
| **ADI** | **Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu”nda dəyişikliklər edilməsi haqqında** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-05-2017, Nəşr nömrəsi: 05, Maddə nömrəsi: 840)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **330.000.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **31.05.2017** |

**Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 8, maddə 440; 2006, 3, maddə 229, 6, maddə 498; 2007, 2, maddələr 86, 101, 3, maddələr 217, 227, 7, maddə 714, 9, maddə 867, 10, maddə 948, 12, maddə 1242; 2008, 1, maddə 9, 3, maddələr 173, 179, 6, maddə 499, 8, maddələr 717, 723; 2009, 2, maddə 66, 6, maddələr 419, 421, 422; 2010; 2, maddə 80, 3, maddə 183, 10, maddə 850; 2011, 2, maddə 85; 2012, 11, maddə 1078; 2013, 3, maddə 236, 8, maddə 901; 2014, 9, maddə 1027; 2016, 5, maddə 854, 6, maddələr 1029, 1073) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.9.2-1-ci, 1.9.2-2-ci, 1.9.9-1-ci və 1.9.9-2-ci yarımbəndlər əlavə edilsin:

"1.9.2-1. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi;

1.9.2-2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini;

1.9.9-1. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi rəisinin müavini;

1.9.9-2. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi;".

2. 1.9.8-ci yarımbənd ləğv edilsin.

3. 2.1.1-ci yarımbənddə ikinci - beşinci abzaslar müvafiq olaraq 1-4-cü abzaslar, 2.1.3-cü yarımbənddə ikinci - on beşinci abzaslar müvafiq olaraq 1-14-cü abzaslar, 2.1.4-cü yarımbənddə ikinci - iyirminci abzaslar müvafiq olaraq 1-19-cu abzaslar, 2.1.5-ci yarımbənddə ikinci - on birinci abzaslar müvafiq olaraq 1-10-cu abzaslar, 2.1.6-cı yarımbənddə ikinci - on ikinci abzaslar müvafiq olaraq 1-11-ci abzaslar, 2.1.7-ci yarımbənddə ikinci - yeddinci abzaslar müvafiq olaraq 1-6-cı abzaslar, 2.1.8-ci yarımbənddə ikinci - beşinci abzaslar müvafiq olaraq 1-4-cü abzaslar, 2.3.1-ci yarımbənddə ikinci - altıncı abzaslar müvafiq olaraq 1-5-ci abzaslar, 2.3.2-ci və 2.3.3-cü yarımbəndlərdə ikinci və üçüncü abzaslar müvafiq olaraq 1-ci və 2-ci abzaslar, 2.3.4-cü yarımbənddə ikinci-dördüncü abzaslar müvafiq olaraq 1-3-cü abzaslar hesab edilsin.

4. 2.1.1-ci yarımbəndin 4-cü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin yarımbəndə aşağıdakı məzmunda 5-ci abzas əlavə edilsin:

"5. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi.".

5. 2.1.2-ci yarımbənd üzrə:

5.1. aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini;";

5.2. ikinci — on dördüncü abzaslar müvafiq olaraq 1-13-cü abzaslar hesab edilsin;

5.3. 7-ci abzas ləğv edilsin;

5.4. aşağıdakı məzmunda 8-1-ci və 8-2-ci abzaslar əlavə edilsin:

"8-1. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi rəisinin müavini;

8-2. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 may 2017-ci il
1436